# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№384/7** **23 dekabr 2025-ci il**

**2026-cı ilin "Auditdə peşə etikası ili" elan edilməsi barədə**

Auditor peşəsinin ictimai etimad üzərində qurulduğunu, peşə etikası normalarına riayət edilməsinin auditor fəaliyyətinin keyfiyyətinə və auditorların nüfuzuna birbaşa təsir göstərdiyini və son illər aparılmış monitorinqlərin nəticələrini nəzərə alaraq, auditorlar tərəfindən etik pozuntuların qarşısının alınması məqsədilə sistemli tədbirlərin həyata keçirilməsinin, habelə auditorların Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) təsdiq etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) müddəalarına əməl olunmasına stimullaşdırmağın vacibliyini vurğulayaraq Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2026-cı il "Auditdə peşə etikası ili" elan edilsin.

2. "Auditdə peşə etikası ili" çərçivəsində aşağıdakı əsas fəaliyyət istiqamətləri müəyyən edilsin:

2.1. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki:

2.1.1. iki həftə müddətində 2026-cı ilin "Auditdə peşə etikası ili" elan edilməsi barədə məlumatın hazırlanaraq KİV-də dərc olunması, habelə bu barədə Palatanın üzvlərinin məlumatlandırılması və təşviqi təmin edilsin;

2.1.2. 2026-cı ilin I yarımilində IFAC və IESBA-nın təsdiq etdiyi standartlara uyğun olaraq etik nəzarət və tətbiq mexanizmləri üzrə qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və təkliflərin hazırlanması təmin edilsin;

2.1.3. Etika ilə bağlı beynəlxalq konfrans və forumlardan materialların əldə edilməsi və tətbiqinə dair Palatanın rəhbərliyinə təkliflərini təqdim etsin;

2.1.4. "Etikaya sadiq auditor" statusu təsis edilsin, bu statusa layiq görülən auditorlar ictimaiyyətə təqdim olunsun;

2.1.5. Yüksək etika nümayiş etdirən auditorlara təşəkkürnamə, diplom və digər stimullaşdırıcı mükafatların verilməsinə dair təkliflərini hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsin.

3. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, 2026-cı il ərzində auditorlar və onların mütəxəssisləri üçün Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə dair ixtisaslaşdırılmış təlimlər, seminarlar və açıq müzakirələr təşkil edilsin.

4. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və İctimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova) tapşırılsın ki, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin izahlı və vizual formada təqdimat materialları, videoçarxlar, elektron broşür və bukletlər hazırlanaraq auditorlara və ictimaiyyətə çatdırılması təmin edilsin.

5. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, Palatanın internet resursunda "Auditorların etik guşəsi" yaradılaraq müvafiq məlumatların yerləşdirilməsi təmin edilsin.

6. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**